# Sakinlərin təklifləri layiqincə təmin edilir

***Bir qayda olaraq yerlərdə vətəndaşlarla qəbulların keçirilməsinə üstünlük verən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev sakinlərin problemlərini, təklif və istəklərini dinləmək üçün Savalan və Məlikli kəndlərində səyyar görüş-qəbullar keçirib.***

## Savalan kəndi



Rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti xidmət təşkilatları rəhbərlərinin və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri görüşü giriş sözü ilə açan RİH-nin başçısı Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində rayonumuzda sosial-iqtisadi sahədə görülən işlər barədə kənd sakinlərinə məlumat verib.

Bildirilib ki, Qəbələdə çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin tikilərək istifadəyə verilməsi, yeni yolların çəkilməsi rayonumuzun hərtərəfli inkişafı üçün möhkəm əsas yaradır.



Rayon icra hakimiyyətinin başçısı son illər digər yaşayış məntəqələri kimi Savalan kəndində də aparılan quruculuq işlərindən danışıb, ərazidəki həlli vacib problemlərə toxunaraq onların həlli yolları barədə öz mülahizələrini sakinlərlə bölüşüb.

Tədbirdə kənd sakinlərindən Vahid Əhmədov, İsmayıl Babazadə, Reyhan Umarova, Elşən Nəcəfov, Könül Əhmədova və başqaları çıxış edərək ölkə vətəndaşlarına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Onlar çıxışlarında kənddə yeni artezian quyusunun qazılmasını, suvarma kanalının təmir olunmasını, elektrik təsərrüfatının yenilənməsini, yaşayış məntəqəsinin mərkəzindən keçən yolun asfaltlaşdırılmasını xahiş ediblər.

RİH-nin başçısı qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti idarə və müəssisə rəhbərlərinə müvafiq tapşırıqlarını verib.

## Məlikli kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti görüş-qəbulu Məlikli kəndində keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

RİH-nin başçısı görüşdə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə gedən sosial-iqtisadi inkişafdan, aparılan islahatlardan söz açıb. O, son illər respublikamızın digər bölgələrində olduğu kimi Qəbələ rayonunda da tikinti-quruculuq işlərinin geniş vüsət aldığını, sosial layihələrin həyata keçirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, yaşayış məntəqələrinin qazlaşdırılması, yeni yolların çəkilməsi, müasir xəstəxana binasının, məktəblərin



inşa edilməsi, əhalinin içməli su ilə təmin olunması, elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı müvafiq işlər görülür

Həyata keçirilən quruculuq işlərinin fonunda Məlikli kəndinə də yeni asfalt yolun çəkildiyini, ərazidə artezian quyusunun qazıldığını, rabitə infrastrukturunda yenidənqurma işlərinə başlanıldığını qeyd edən RİH-nin başçısı bu istiqamətdə görüləcək işlərin genişləndiriləcəyini bildirib.

Görüşdə çıxış edənlər Qəbələdə, o cümlədən Məlikli kəndində görülən işlərə və yaşayış məntəqəsinə çəkilən yeni, rahat asfalt yola görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

Kənd sakinlərindən Dursun Göyüşov, İsrafil Məmmədov, Sövdiyar Baxışov, Bağdagül Göyüşova, Rövşən Hüseynov, Mehriban Rəsulova və başqaları tərəfindən kənd tam orta məktəbinin əsaslı təmir olunması, tibb məntəqəsi üçün yeni binanın tikilməsi, əlavə elektrik transformatorunun



qoyulması, artezian quyusunun qazılması və əraziyə qaz çəkilməsi ilə əlaqədar təkliflər irəli sürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev tədbirdə çıxış edərək vətəndaşların qaldırdıqları məsələlərin həlli ilə bağlı əlaqədar qurum və təşkilatlara müraciət olunacağını bildirib.

Rayon icra hakimiyyətinin başçısı sakinlərin görüşdə qaldırdıqları məsələlərlə əlaqədar müvafiq təşkilatların rəhbərlərinə konkret tapşırıqlar verib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Azərbaycanla Fransa arasında əməkdaşlıq genişlənir

Ölkəmizin Fransadakı səfirliyinin Parisdəki Mədəniyyət Mərkəzində Azərbaycan-Fransa re-



gionlararası əməkdaşlığının inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin birinci iclası keçirilib.

Ölkəmizin Fransadakı səfiri Rəhman Mustafayev iclasda iki ölkə arasında mövcud olan iqtisadi əlaqələrdən danışıb.

Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin növbəti iclasının Fransa şəhərləri ilə qardaşlaşmış Azərbaycan şəhərlərindən birində keçirilməsi təklif edilib.

Tədbirdə Azərbaycanın nümayəndə heyətinin tərkibində Qəbələ Rayon İcra Hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri, RİH başçısının müavini Arif Allahverdiyev də iştirak edib.

**Zahir KƏRİMOV,**
**RİH-nin sektor müdiri.**

# Konstitusiyamız dövlətçiliyimizin hüquqi əsasıdır

**(Əvvəli 1-ci səhifədə).**

ci il noyabrın 12-də Azərbaycan vətəndaşları böyük ruh yüksəkliyi şəraitində ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk konstitusiyasını qəbul etdilər.

Uzunmüddətli gərgin əməyin məhsulu olan konstitusiyamız öz demokrativliyi humanizmi və dolğunluğu ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin olunması və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün əlverişli zəmin yaratdı.

Konstitusiya dövlətin ən ali hüquqi qüvvəyə malik qanunu kimi sosial-iqtisadi və siyasi sahədəki proseslərə uyğun olaraq daim inkişafda olmalıdır. Bu baxımdan konstitusiyaya müəyyən vaxtlarda dəyişikliklərin olunması bütün dövlətlər üçün səciyyəvi haldır.

Ölkəmizdə üç dəfə ümumxalq səsverməsi, referendum yolu ilə konstitusiyamıza müəyyən dəyişikliklər və əlavələr edilmişdir. İlk dəfə 2002-ci ildə Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsinə yaranan ehtiyac bütün sahələrdə qabarıq nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində əldə olunan uğurlar, bütövlükdə respublikanın həyatında özünü göstərən fundemental dəyişikliklər, yeniliklər Azərbaycan Respublikasının Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirdi.

Bu məqsədlə 2009-cu il martın 18-də keçirilən referendum Azərbaycan xalqının demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan konstitusiya islahatlarını dəstəklədiyini təsdiq etdi.

Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, ictimai münasibətlərin tənzimlənməsi və digər bu kimi məsələlərlə bağlı islahatların həyata keçirilməsi məqsədilə 2016-cı ilin sentyabr ayında konstitusiyaya əlavə dəyişikliklər üçün növbəti ümumxalq səsverməsi keçirilmişdir. Bu referendumla konstitusiyanın 23 maddəsində dəyişiklik edilmiş, 6 maddə əlavə olunmuşdur.

Azərbaycan vətəndaşları referenduma kifayət qədər ciddi və məsuliyyətlə yanaşmış, təklif olunan dəyişiklik və əalvələri dəstəkləmişlər.

Konstitusiyaya təklif olunan dəyişiklik və əlavələrin əhalinin mütləq əksəriyyəti tərəfindən dəstəklənməsi Azərbaycan xalqının öz prezidentinə etimadının göstəricisi olmaqla yanaşı, həm də ölkəmizdə demokratiyanın təntənəsi kimi dəyərləndirilir.

**"Qəbələ"**